# Üç bölgə, üç təəssürat, bir tamaşa...



Azərbaycanın Şərqlə Qərbin qovuşuğunda yerləşməsi, eləcə də son illərdəki sürətli inkişafı beynəlxalq ictimaiyyətin ölkəmizə olan marağını daha da artırıb. Bu gün ölkəmiz ən mötəbər tədbirlərə, elmi konfranslara, idman, musiqi yarışlarına, teatr, kino festivallarına ev sahibliyi edir. Azərbaycanın beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi onun xarici siyasətinin yüksələn xətlə inkişafından xəbər verir.

Ölkə daxilində baş tutan Beynəlxalq tədbirlərlə yanaşı, Azərbaycanın beynəlxalq aləmdə təmsil və təbliğ etmək məsələsi də vacib şərtdir...

Azərbaycan mədəniyyəti və teatr tarixində özünəməxsus yeri olan Dövlət Gənc Tamaşaçılar Teatrı da iştirak etdiyi Beynəlxalq festival və qastrollarda bunu əsas götürərək ölkəmizi layiqincə təmsil etməkdədir...

Ötən gün Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının yaradıcı heyəti 3 ayrı-ayrı Respublikada qastrol səfərini uğurla başa vuraraq vətənə geri dönüb.

3 yaxın və uzaq xarici ölkə teatr rəhbərləri ilə Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru, ASSİTEJ-Azərbaycan Milli Mərkəzinin prezidenti, Azərbaycan Respublikasının Əməkdar Artisti, Kalmıkiya Respublikasının Əməkdar İncəsənət Xadimi Mübariz Həmidovun imzaladığı qarşılıqlı yaradıcılıq müqaviləsinə uyğun olaraq kollektiv aprel ayının 19-dan 30-dək Gürcüstan Dövlət Peşəkar Gənc Tamaşaçılar, Vladiqafqaz Dövlət Gənc Tamaşaçılar və Çeçenistan Respublikası Dövlət Gənc Tamaşaçılar Teatrında "Dəcəl keçi" tamaşası ilə çıxış edib.

Yaradıcı kollektivimizin ilk - Gürcüstan səfəri aprel ayının 19-dan start götürdü.

### BİR AZ GÜRCÜSTAN HAQQINDA...

Qədim xalq əfsanəsində deyilir ki, Tanrı insanlara onların yaşayacaqları torpaqları paylayarkən başları kef məclisinə çox qarışdığına görə gürcülər pay almağa gecikmişdilər. Tanrının hüzurunda olarkən Tanrı onlara daha boş torpaq qalmadığını söyləmişdi. Buna cavab olaraq gürcülər Tanrının şərəfinə içdikləri üçün gecikdiklərini söyləmiş və Onu süfrə başına dəvət etmişdilər. Tanrı süfrə başında vaxtını elə gözəl keçirmişdi ki, gürcülərə özü üçün ehtiyat saxladığı torpağı bağışlamaq qərarına gəlmişdi. Elə buna görə də deyirlər ki, Gürcüstan ilahi diyardır!

Gürcüstan, xüsusən də onun mərkəzi şəhəri Tiflis tarix boyu Zaqafqaziyanın ədəbi-mədəni mərkəzlərindən biri sayılıb. Azərbaycanın ədəbi-mədəni və ictimai-siyasi həyatında əhəmiyyətli yeri olan M.F.Axundzadə, N.Nərimanov, F.Xoyski, Ə.Topçubaşov, Ö.F.Nemanzadə, A.Şaiq kimi bir çox ziyalılar bu şəhərdə yaşayıb yaradıblar. Hazırda Gürcüstanda təxminən 320.000-dən çox soydaşımız yaşayır.

Qonaqpərvərliyi, iqlimi, mətbəxi ilə ölkəmizi xatırladan Gürcüstan elə bizim kimi qədim və zəngin tarixə malikdir. Gürcülər özlərini "Kartvelebi", ölkələrini "Sakartvelo", dillərini "Kartuli" adlandırırlar. Bura 53 rayon və 2 muxtar respublikadan ibarətdir ki, bunlar da 12 region və 11 şəhər üzrə birləşdirilib.

### QASTROL TAMAŞALARINA...

21-22 aprel tarixlərində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının yaradıcı kollektivi Nodar Dumbadze adına Gürcüstan Dövlət Peşəkar Gənc Tamaşaçılar Teatrının səhnəsində start verildi. Ilk gün gürcü tamaşaçılarına, növbəti gün isə öz həmyerlilərimiz üçün nümayiş etdirilən "Dəcəl keçi" hər iki auditoriya tərəfindən çox böyük maraqla qarşılandı.

Səfərin ikinci günü tamaşaya baxmaq üçün Azərbaycan Respublikasının Gürcüstandakı səfirinin birinci katibi Vüqar Mustafayev və səfirliyin nümayəndəsi Leyla Əmrahova, İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin nəzdində "Azərbaycan dostları klubu"nun nümayəndələri və onların ailə üzvləri teatra təşrif buyurmuşdular. Onlar tamaşadan sonra səhnə arxasına keçərək aktyorlarımızı təbrik etmiş, Teatrının yaradıcı heyətinə öz minnətdarlıqlarını bildirdilər.

Tamaşanın nümayişindən sonra teatrın icraçı direktoru və bədii rəhbəri Dimitri Xvtisiaşvili hər bir aktyorumuza ayrı-ayrılıqda öz minnətdarlığını bildirirək Gürcüstanın simvolik hədiyyələrini təqdim etdi. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adından da Gürcüstan Teatrına milli mədəniyyətimizi əks etdirən suvenirlər təqdim olundu.

### SƏFƏR ÇƏRÇİVƏSİNDƏ ŞƏHƏRLƏ TANIŞLIQ...

Qastrol səfəri günlərində kollektivimiz Ümummilli lider Heydər Əliyev adını daşıyan mədəniyyət və istirahət parkını, milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadənin qəbrini və Gürcüstan Dövlət Teatr, Musiqi, Kino və Xoreoqrafiya Muzeyini ziyarət etdi.

### VLADİQAFQAZ TEATRINA GEDİRİK...

Tiflisdəki uğurundan sonra kollektiv aprelin 23-də Şimali Osetiya istiqamətinə yol aldı. 23-27 aprel tarixlərində yaradıcı heyətimiz Şimali Osetiya - Alaniya Respublikası Vladiqafqaz Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində "Dəcəl keçi"si ilə çıxış etdi.

### KEÇMİŞ YARADICILIQ ƏLAQƏLƏRİNƏ NƏZƏR SALAQ...

Vladiqafqaz ilə Azərbaycan teatrları arasındakı yaradıcılıq əlaqələri ötən əsrin əvvəllərindən yaranaraq inkişaf etməyə başlayıb. Əsrin əvvəllərində fəaliyyət göstərən teatr truppalarının Qafqaz bölgəsinə qastrolları zamanı tez-tez bu bölgədə də tamaşalar nümayiş etdirilib. Abbas Mirzə Şərifzadənin rəhbərliyi altında fəaliyyət göstərən "Müsəlman aktyorlar birliyi"nin qastrol səfəri etdiyi şəhərlər sırasında Vladiqafqaz və Qroznı da var idi. Bu yaradıcılıq əlaqələri Sovet və postsovet dönəmində zəifləyərək unudulub... Teatr əlaqələrinin yenidən bərpa etmək isə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının payına düşüb. 5 il öncə başlayan danışıqlar nəhayət öz bəhrəsini verərək yeni yaradıcılıq əlaqələrinin qurulması, möhkəmlənməsi və gələcək işbirlikləri yaradılması istiqamətində yol alıb...

### SƏFƏR ÇƏRÇİVƏSİNDƏ MƏTBUAT KONFRANSI...

Konfransda Vladiqafqaz Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru Vladislav Koliyev, Azərbaycanın Şimali Osetiyadakı diasporunun sədr müavini Fuad Kazımov və qastrol səfərində iştirak edən aktyorlarımız - Səbinə Məmmədova, Ədalət Əbdülsəməd və İlham Əsədov, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktor müavini Fəxrəddin Dünyamalıyev jurnalistlərin suallarını cavablandırıblar.

V.Koliyev qarşılıqlı qastrol səfəri haqqında danışaraq bildirib ki, nəinki sovet hətta postsovet dönəmində Azərbaycan və Vladiqafqaz arasında mədəni əlaqələr, qarşılıqlı gediş-gəliş olmayıb: "Bu əlaqələri bərpa edib möhkəmləndirmək isə artıq hər iki teatr qarşısına qoyulmuş prioritet məsələlərdəndir. Qarşılıqlı yaradıcılıq əlaqələrinin qurulması haqqında Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru Mübariz Həmidovla danışıqlarımız hələ 5 il öncə başlayıb. Nəhayət biz həmin danışıqları həyata keçirə bildik. Bildiyiniz kimi aprel ayının əvvəllərində bizi Dövlət Gənc Tamaşaçılar Teatrı "Jili-bıli" tamaşası ilə olduqca isti münasibətlə qarşıladı. Bu gün də biz Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrını istedadlı yaradıcı heyətini qəbul edirik. Perspektivdə isə qarşılıqlı rejissor mübadiləsi çərçivəsində hər iki teatrda uşaq tamaşalarının hazırlanması durur. Düşünürəm ki, növbəti layihələrimiz də uğurla gerçəkləşəcək".

Fuad Kazımov çıxışında qastrol səfərlərinin Azərbaycan və Vladiqafqaz teatrları arasında qarşılıqlı yaradıcılıq əlaqələrinin möhkəmlənməsi üçün olduqca vacib olduğunu bildirərək, hələ XX əsrin əvvəllərində "Leyli və Məcnun" operasının ilk premyeralarından birinin məhz Vladiqafqazda nümayiş etdirildiyini bildirib.

Aktyorlarımız isə çıxışlarında tamaşaçıların xoş münasibəti, tamaşaya səmimi yanaşmaları haqqında fikirlərini bildiriblər.

Səfər çərçivəsində bir tamaşa çoxuşaqlı və aztəminatlı ailələrin övladları və sağlamlığı məhdud olan uşaqlar üçün nümayiş etdirilib.

### DİPLOMLAR VƏ BOL TAMAŞAÇI ALQIŞI HƏDİYYƏMİZ OLDU...

Qastrol səfərinin bağlanış mərasimində Şimali Osetiya Respublikasının Mədəniyyət Naziri Ruslan Mildzixov iştirak edərək yaradıcı kollektivimizə "Təşəkkür məktubu" təqdim edib. Şimali Osetiyada fəaliyyət göstərən Heydər Əliyev adına "Azəri" Azərbaycan milli-mədəni təşkilatının və Azərbaycan diasporasının sədri Natiq İsmayılovun adından diasporun sədr müavini çıxış edərək Azərbaycan və Osetiya arasındakı mədəni əlaqələrin inkişafından məmnunluğunu bildirib və kollektivimizi diplomla təltif edib.

### BİR QƏDƏR ÇEÇENİSTAN DÖVLƏT GƏNC TAMAŞAÇILAR TEATRI HAQQINDA...

Teatr 1938-ci ildə "Volşebnaə kaloşa" tamaşası ilə ilk mövsümünü açıb. Yarandığı zaman Kukla Teatrı kimi fəaliyyətə başlayan teatr 2006-cı ildən artıq Dövlət Gənc Tamaşaçılar Teatrı kimi fəaliyyət göstərib. Uğurlu tamaşaları, quruluş verilən səhnə əsərləri ilə qısa müddətdə səs salan teatr müharibə illərində belə xəstəxanalarda nümayiş etdirdiyi tamaşalarla fəaliyyətini davam etdirib...



Gələn il 80 illik yubileyini qeyd edəcək Çeçenistan Dövlət Gənc Tamaşaçılar Teatrının məqsədi hər yeni tamaşa ilə öz izləyicilərinə yeni mesajlar, xeyirxahlıq və səmimi hislər ötürməkdir...

### QASTROL SƏFƏRİNİN SON "DAYANACAĞI"...

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının qastrol turunun üçüncü mərhələsi Çeçenistan Dövlət Gənc Tamaşaçılar Teatrında olub. Aprel ayının 28-dən - 30-dək davam edən qastrol digərləri kimi olduqca maraqlı və yaddaqalan keçib.

Hər üç səfər yeni əməkdaşlıqlar, maraqlı təkliflər və gələcək layihələrin başlanğıcı fonunda çox uğurla başa çatıb.

Aprel ayının 30-da teatrımızın yaradıcı heyəti geri - Vətənə dönüb.

**Hüsniyyə Quliyeva**
**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının mətbuat xidmətinin rəhbəri, Teatrşünas**

*Bakı-Tiflis-Vladiqafqaz-Qroznı-Bakı*



